

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 24 fevral 2024-cü il №14 (2825) https://mod.gov.az Qiymәti 30 qəpik


## Azərbaycan Respublikası vətəndaşlarının 2024-cü il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

*Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə* ***qərara alıram:***

1. 2006-cı ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1989-2005-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2024-cü il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2024-cü il aprelin 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 21 fevral 2024-cü il

*Döyüş hazırlığı*

## Keçirilən təlim və məşğələlər ordumuzu məğlubedilməz edir



***Şanlı ordumuzun qazandığı Böyük Qələbədə bütün qoşun növlərinin böyük rolu oldu. Rütbəsindən, vəzifəsindən asılı olmayaraq hər kəs müqəddəs amal uğrunda irəli atılaraq ona olan etimadı layiqincə doğrultdu və qazanılan qələbədə müstəsna pay sahibi oldu. Şübhəsiz ki, qazanılan qələbənin fundamentində keçirilən müxtəlifmiqyaslı təlimlərin, gərgin əməyin durduğunu nəzərə alsaq, əminliklə və qürurla deyə bilərik ki, Azərbaycan əsgəri müqəddəs sınaqdan üzüağ çıxmağı bacardı.***

Dövrümüzdə müharibə anlayışını quru qoşunlarının fəaliyyəti olmadan təsəvvür etmək olmaz. Məlumdur ki, arsenalımızda olan müasir, yüksək dəqiqlikli silahların istifadəsi və düşmənin strateji əhəmiyyətli hərbi obyektlərinin sıradan çıxarılması ilə piyada qoşunlarının irəliləməsi üçün əlverişli zəmin yarandı. Təbii ki, döyüşdə piyadaların irəliləməsində piyada döyüş maşınlarının da iştirakı mütləq şərtdir. Labüd müharibə şəraitində quru qoşunlarının tərkibində piyadaların hərəkəti üçün zireh qorunması nəzərə alınmaqla, arsenalımızda olan PDM-lər (Piyadaların Döyüş Maşınları) ön plana çıxır.

"N" hərbi hissəsinin bölməsinin çöl dərsində iştirak etdik. 44 günlük haqq savaşımızda iştirak edən bölmənin zabiti Faiq Əliyev döyüşaparma üsul və vasitələrinin günbəgün dəyişdiyini və yeniliklərin öyrənilməsi üçün daim dərs, məşğələ və təlimlərdə iştirakın zəruriliyini qeyd etdi. Zabit Faiq Əliyev bizi bölmənin təyinatı və görüləcək fəaliyyətləri ilə də bağlı məlumatlandırdı. "PDM-in təyinatı düşmən dərinliyinin yarılmasında, əməliyyat zolağının intensiv atəşə məruz qoyulmasında vasitəçi olmaqdır. Həmçinin piyadaların təhlükəsiz və sürətli hərəkətini təmin etmək üçün də PDM-dən istifadə olunur. Belə ki, silah atəşlərindən, mərmi qəlpələrindən və digər amillərdən yaranan itki və ləngimələrin qarşısını almaqda zirehli PDM-lər yüksək əhəmiyyətə malikdir. Dövr keçdikcə döyüşün üsul və yolları da, təbii ki, dəyişir. Ordu rəhbərliyinin tapşırığına əsasən, müasir tələblərə uyğun modifikasiya olunan texnikalarımız ilə dövrün döyüş üsullarını öyrənir, öz ixtisas bilik və bacarıqlarımızı tələblərə uyğun mənimsəyirik. Belə ki, arsenalımızda olan döyüş vasitəsinin silah modulu, nişangah sistemləri və rabitə vasitələrinin müasir tələblərə uyğun təkmilləşdirilməsi əsas prioritet istiqamətlərdəndir ki, bu istiqamətdə də mühüm işlər həyata keçirilir. O cümlədən keçirilən müxtəlif miqyaslı təlimlərdə yeni döyüşaparma üsullarını öyrənir və öyrəndiklərimizi uğurla tətbiq edirik. Bölməmiz 44 günlük Vətən müharibəsi zamanı üzərinə düşən vəzifəni ləyaqətlə və layiqincə yerinə yetirdi. Üzərimizə düşən əsas vəzifə bundan sonra da xidmətimizi məsuliyyətlə yerinə yetirərək, döyüş hazırlığımızı artıraraq ordumuzun güclənməsinə töhfə verməkdir".

Müsahibim gizir Rüstəm Vəliyev uzun illərdir ordu sıralarında xidmət edir. "Ölkənin qüdrəti onun ordusunun gücü, əsgərinin döyüş ruhu ilə bağlıdır. Sadalanan məfhumların hər birinin kökündə isə vətənpərvərlik hissi durur ki, Azərbaycan əsgəri son illərdə qazandığı tarixi qələbələrlə bu hissin necə bir şey olduğunu öz əməli ilə izah etməyi bacardı.

**(Ardı 5-ci səhifədə)**

## “Komando başlanğıc kursu”nda praktiki məşğələlər yerinə yetirilir

Cari ilin hazırlıq planına uyğun olaraq, "N" hərbi hissəsində keçirilən "Komando başlanğıc kursu" davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, məşğələlər zamanı hərbi qulluqçular öyrəndikləri nəzəri biliklərini təlim sahəsində praktiki tapşırıqları icra etməklə möhkəmləndirirlər.

Plana əsasən, kurs iştirakçıları şərti düşmən hədəflərinin aşkar olunaraq atıcı silahlardan dəqiq atəşlə məhv edilməsi üzrə tapşırıqları yerinə yetiriblər.

Azərbaycan Ordusunda peşəkar kadrların hazırlanması, bölmələrin döyüş qabiliyyətinin daha da yüksəldilməsi məqsədilə keçirilən "Komando başlanğıc kursu"nda məşğələlər müasir döyüş üsulları nəzərə alınmaqla tədris olunur.





# “Yeni dövrə böyük ümidlərlə!” devizi altında silsilə tədbirlər keçirilib







Müdafiə Nazirliyi rəhbərliyinin tapşırığına əsasən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 14-də Milli Məclisdə andiçmə mərasimindəki tarixi nitqinin təbliği və qarşıya qoyulan mühüm vəzifələrin şəxsi heyətə çatdırılması məqsədilə silsilə tədbirlər keçirilib.

"Yeni dövrə böyük ümidlərlə!" devizi altında tədbirlər çərçivəsində işğaldan azad edilən ərazilərdə dislokasiya olunan, eləcə də digər hərbi hissələrdə hərbi qulluqçularla görüşlər keçirilib, bir-birindən maraqlı vətənpərvərlik tədbirləri ilə şəxsi heyətin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsi üçün onlara mənəvi, hüquqi və mədəni xidmət göstərilib.



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, layihənin müəllifi, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani tədbirlərdə çıxış edərək Müzəffər Ali Baş Komandanın andiçmə mərasimində çıxış edərkən Azərbaycan Ordusu haqqında söylədiyi dəyərli fikirləri bir daha şəxsi heyətin nəzərinə çatdırıb, ölkəmizin və ordumuzun həyatında yeni bir dövrün başlandığını bildirib.

Qeyd olunub ki, Prezident İlham Əliyevin tarixi çıxışı son 20 ildə ölkəmizin iqtisadi, siyasi, mədəni həyatında, ordu quruculuğunda, beynəlxalq aləmdə qazandığı möhtəşəm nailiyyətlərin hesabatı olmaqla yanaşı, həm də xalqımızın, dövlətimizin, o cümlədən ordumuzun qarşısında mühüm vəzifələr qoyub.

Hərbi qulluqçular da öz növbələrində çıxış edərək qarşılarına qoyulan vəzifələrin həyata keçirilməsi üçün səylərini əsirgəməyəcəklərini, göstərilən böyük etimadı bundan sonra da şərəfli xidmətləri ilə doğruldacaqlarını, Ulu



Öndər Heydər Əliyevin ideyalarına həmişə sadiq qalaraq Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edəcəklərini bildiriblər.

Tədbirlərdə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin təqdim etdiyi hərbi marşlar, vətənpərvərlik mahnıları və Azərbaycan əsgərinin möhtəşəm Zəfərini tərənnüm edən ədəbi, bədii və xoreoqrafik kompozisiyalar alqışlarla qarşılanıb.

# “Əsgərin kitab rəfi” aksiyası çərçivəsində silsilə tədbirlərə start verilib



*<u>Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və "İRƏLİ" İctimai Birliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Əsgərin kitab rəfi" kitabtoplama aksiyası çərçivəsində "Məndən başlanır Vətən" adlı silsilə ədəbi-bədii tədbirlərə start verilib.</u>*

"İRƏLİ" İctimai Birliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbir Azərbaycan Dillər Universitetində (ADU) keçirilib.

Tədbirdə tanınmış ictimaiyyət nümayəndələri, media mənsubları və tələbələr iştirak ediblər.

Əvvəlcə Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbir iştirakçılarını salamlayan Azərbaycan Dillər Universitetinin (ADU) rektoru, Xalq yazıçısı, akademik Kamal Abdulla "Məndən başlanır Vətən" adlı ilk silsilə tədbirin ADU-da keçirilməsinə görə "İRƏLİ" İctimai Birliyinə öz təşəkkürünü bildirib.

Diqqətə çatdırılıb ki, Azərbaycan Dillər Universiteti gənclərin hərtərəfli inkişafı sahəsində heç bir zaman öz dəstəyini əsirgəməyib və belə tədbirlər bunu bir daha əyani şəkildə nümayiş etdirir.

"Azərbaycan Ordusunun sıralarında xidmət edən hərbi qulluqçuların savadlı, intellektual, vətənpərvər yetişməli və Vətəninə, dövlətinə sadiq tərbiyə olunmalıdır" deyən Xalq yazıçısı, akademik Kamal Abdulla bu istiqamətdə olduqca böyük əhəmiyyətə malik "Əsgərin kitab rəfi" kitabtoplama aksiyasının işində uğurlar arzulayıb.

Daha sonra çıxışçılar - Vətən müharibəsi iştirakçısı, "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmiş "İRƏLİ" İctimai Birliyinin sədri Şahin Rəhmanlı, Əməkdar İncəsənət xadimi, şair Baba Vəziroğlu, Azərbaycan Ordusunun polkovniki, Əməkdar İncəsənət xadimi, Zəfər Paradının ssenari müəllifi və aparıcısı Abdulla Qurbani gənclərin hərbi vətənpərvərlik mövzularında təşkil olunan müxtəlif layihələrdə iştirakından söhbət açıblar. Bildiriblər ki, 44 günlük Vətən müharibəsindən sonra xalqımızın yeni dövrə başlanğıcı məhz gənclərin hərtərəfli inkişafından asılıdır. Ötən ilin sentyabr ayında baş tutan əməliyyat tədbirlərində Azərbaycan gəncliyinin fəal iştirakı da məhz bu istiqamətdə görülmüş işlərin bariz nümunəsidir. Çıxışçılar bundan sonra da Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qələbələrimiz və müstəqilliyimizin əbədi olacağına əminliyini ifadə ediblər.



Tədbirin bədii hissəsində Azərbaycan Respublikası Müdafiə Nazirliyinin nəzdində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi, polkovnik, Əməkdar artist Cahangir Qurbanov və vokal qrupunun ifasında "Qələbəyə gedən yollar", gənc vokalçı, Prezident təqaüdçüsü Atilla Məmmədovun ifasında "Azərbaycan", Qarabağ müharibəsi iştirakçısı, xanəndə Əvəzxan Əzizovun ifasında "Ana yurdum" və "Qəşəngdir", həmçinin Azərbaycan Dillər Universitetinin tələbələrinin ifasında "Biz Vətənik, Vətən də biz" adlı nəğmə və kompozisiyalar təqdim olunub.



Tədbirin sonunda xatirə şəkli çəkdirilib, Azərbaycan Dillər Universiteti tərəfindən "Əsgərin kitab rəfi" aksiyası üçün toplanmış kitablar "İRƏLİ" İctimai Birliyinə təqdim olunub.

Xatırladaq ki, "Əsgərin kitab rəfi" kitabtoplama aksiyasının keçirilməsində əsas məqsəd əsgərlərimizin asudə vaxtının səmərəli təşkilinə töhfələr vermək, eləcə də gənclər arasında mütaliəyə marağın artırılmasıdır. Ötən il keçirilən kitabtoplama aksiyasında "İRƏLİ" İctimai Birliyi tərəfindən 12 mindən çox kitab toplanaraq işğaldan azad olunmuş ərazilərdəki hərbi bölmələrə təhvil verilib.

# Hərbi Prokurorluqda Xocalı soyqırımının otuz ikinci ildönümü ilə əlaqədar elmi-praktik konfrans keçirilib



Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Xocalı soyqırımının otuz ikinci ildönümü ilə əlaqədar elmi-praktik konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Hərbi Prokurorluğunun inzibati binasında yerləşməklə onun nəzdində fəaliyyət göstərən Soyqırımı Memorial Muzeyində keçirilən tədbirdə Hərbi Prokurorluğun, Xocalı rayon İcra Hakimiyyətinin əməkdaşları, millət vəkilləri, Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin və Xocalı Soyqırımını Tanıtma İctimai Birliyinin üzvləri, Xocalı sakinləri, habelə ictimaiyyət və mətbuat nümayəndələri iştirak ediblər.

Əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin büstü önünə gül dəstələri düzülərək, nəhəng tarixi şəxsiyyətin parlaq xatirəsinə dərin ehtiram ifadə olunub.

Konfransdan öncə Ulu Öndər Heydər Əliyevin, bütün şəhidlərin, o cümlədən Xocalı soyqırımı qurbanlarının əziz və unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfrans iştirakçıları Memorial Soyqırımı Muzeyini ziyarət ediblər, onlara muzey və orada saxlanılan, tarixi həqiqətləri, o cümlədən Xocalı soyqırımı haqqında reallığı özündə əks etdirən eksponatlar barədə ətraflı məlumat verilib, həmçinin Xocalı soyqırımı qurbanları barələrində məlumatların əks olunduğu slayd nümayiş etdirilib.

Bundan sonra, konfransı açıq elan edən Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev 2024-cü il 7 fevral tarixdə keçirilmiş növbədənkənar Prezident seçkilərində dahi şəxsiyyət Heydər Əliyevin ən layiqli davamçısı İlham Əliyevin parlaq və mütləq qələbəsinin Azərbaycan xalqının ən böyük uğuru olduğunu xüsusi vurğulayaraq, son 20 ildə ölkəmizin əldə etdiyi misli görünməmiş nailiyyətlərindən, o cümlədən tarixi torpaqlarımızın işğaldan azad edilməsindən, həmin ərazilərdə həyata



keçirilən abadlıq-quruculuq işlərindən bəhs edib. Hərbi prokuror Xanlar Vəliyev bildirib ki, əldə olunan uğurlarda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin mühüm rolu olmuşdur.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev konfrans iştirakçılarının diqqətini Xocalı soyqırımına yönəltməklə, o müdhiş gecədə baş verənlərdən, hadisələrin necə cərəyan etməsindən ətraflı danışaraq, bütün bunların Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda istintaq olunan cinayət işinin materiallarında toplanmış mötəbər dəlillərlə sübuta yetirildiyini bildirib.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Xocalı soyqırımına ilk dəfə siyasi və hüquqi qiymət verildiyini vurğulayan Hərbi Prokuror Xanlar Vəliyev tarixi torpaqlarımızın işğal olunması, Azərbaycan xalqına qarşı törədilən deportasiyalar, soyqırımlar, terrorlar və insanlığa sığmayan vəhşiliklərlə törədilmiş digər cinayətlər barədə konfrans iştirakçılarına ətraflı məlumat verməklə qeyd edib ki, bu barədə tarixi reallıqların dünya ictimaiyyətinə çatdırılması, onlara beynəlxalq səviyyədə obyektiv və ədalətli, yəni, həqiqətə və milli maraqlarımıza uyğun münasibət bildirilməsinə müvəffəq olunması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin həyata keçirdiyi mükəmməl siyasətin, o cümlədən uğurlu xarici siyasətin, eləcə də dövlət başçısının müstəsna xidmətlərinin, müdrik liderin səlis cümlələrlə və tarixi faktlara əsaslanan məntiqli fikirlərlə zəngin çıxışlarının və müsahibələrinin nəticəsidir.

Ötən əsrin ən dəhşətli faciələrindən biri olan Xocalı soyqırımı barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasının son dərəcə mühümlüyünü qeyd edən ədliyyə general-leytenantı Xanlar Vəliyev Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə bu istiqamətdə görülən nəhəng işlər, o cümlədən Heydər Əliyev Fondunun səmərəli fəaliyyəti barədə tədbir iştirakçılarına geniş məlumat verib.

Hərbi prokuror Xanlar Vəliyev Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın həyata keçirdiyi "Xocalıya Ədalət!" kampaniyasından, o cümlədən Xocalı Soyqırımı haqqında doğru və dolğun məlumatların bütün dünyaya yayılması ilə bağlı yorulmaz fəaliyyətindən söz açıb.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev qeyd edib ki,



Azərbaycan Respublikasının işğalda olmuş ərazilərində törədilmiş sülh və insanlıq əleyhinə, müharibə, terrorçuluq cinayətlərinin, o cümlədən Xocalı soyqırımının və digər cinayətlərin istintaqı və onlara hüquqi qiymət verilməsi, həmin cinayətlərin təşkili və törədilməsində iştirak etmiş



şəxslərin müəyyən edilib mövcud qanunvericiliyə əsasən cinayət məsuliyyətinə cəlb edilməsi, habelə beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması faktları ilə bağlı beynəlxalq təşkilatlar qarşısında müvafiq vəsatətlər qaldırılması məqsədilə istintaq-əməliyyat qrupu yaradılmış, 05 may 2005-ci il tarixdən isə təşəbbüsü əsasında həmin cinayət işinin istintaqı ibtidai araşdırmaya prosessual rəhbərlik Respublika Hərbi prokuroruna həvalə edilməklə, Azərbaycan Respublikasının Hərbi Prokurorluğuna tapşırılıb.

Cinayət işi üzrə ümumilikdə 81 000-dən artıq istintaq hərəkəti icra edilib, o cümlədən 29 000-dən artıq şəxs zərərçəkmiş şəxs və zərərçəkmiş şəxsin hüquqi varisi qismində tanınaraq dindirilib, 30 000-dən artıq şəxs şahid qismində dindirilib, 18 000-dən artıq şəxs mülki iddiaçı qismində tanınıb, 4000-ə yaxın müxtəlif növ ekspertizalar keçirilib, 34 000-ə yaxın prosessual qərarlar qəbul edilib və digər çoxsaylı zəruri istintaq hərəkətləri yerinə yetirilib.

Cinayət işinin istintaqı zamanı konkret olaraq Xocalı epizodu üzrə sülh və insanlıq əleyhinə cinayətlər törətmələri sübuta yetirilmiş 40 nəfər şəxsin barəsində onların Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103-cü (Soyqırımı), 107-ci (Əhalini deportasiya etmə və ya məcburi köçürmə), 113-cü (İşgəncə) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmələrinə dair qərarlar qəbul edilib, barələrində məhkəmə qərarlarına əsasən həbs qətimkan tədbiri seçilib və axtarışlarının təmin edilməsi üçün sənədlər İnterpolun Azərbaycan Respublikasındakı Milli Mərkəzi Bürosuna və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Cinayət Axtarış İdarəsinə göndərilib. Təqsirləndirilən şəxs qismində cəlb edilmiş şəxslərin sırasında sabiq müdafiə naziri Ohanyan Seyran Muşeqoviç də vardır. Hazırda hərtərəfli istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Bundan sonra, millət vəkilləri Sevinc Fətəliyeva, Sevinc Hüseynova, Məşhur Məmmədov, Mahir Abbaszadə, Emin Hacıyev, Azərbaycanın Milli Qəhrəmanı şəhid Füzuli Rüstəmovun bacısı Fiqurə Rüstəmova və digər şəxslər də bəşəriyyətin ən böyük faciələrindən biri olan Xocalı soyqırımı barədə çıxışlar ediblər və ətraflı fikir mübadiləsi aparılıb.

Daha sonra Azərbaycan Respublikası Hərbi Prokurorluğunun təşəbbüsü ilə hazırlanmış soyqırımı haqqında "Əsrin faciəsi" rəqəmsal videodiski nümayiş etdirilib.

# Hərbi vəzifəlilərin təlim toplanışları davam edir



*2024-cü ilin döyüş hazırlığı planına əsasən, "N" hərbi hissəsində bir qrup hərbi vəzifəlinin iştirakı ilə təlim toplanışı keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, plana uyğun olaraq hərbi vəzifəlilərlə döyüş hazırlığı üzrə məşğələlər keçirilib, onlara silah və texnikanın taktiki-texniki xüsusiyyətləri, minaatanların döyüşə hazır vəziyyətinə gətirilməsi öyrədilib.

Həmçinin hərbi texnikaların təyinatı üzrə düzgün istismarı və hərbi yüklərin daşınması qaydaları izah olunub, hərbi nəqliyyat vasitələrinin istənilən hava şəraitində və müxtəlif relyefli ərazilərdə təhlükəsiz idarə edilməsi məşq etdirilib.

Toplanış müddətində qarşıya qoyulan fəaliyyətlər hərbi vəzifəlilər tərəfindən uğurla yerinə yetirilib.

Qeyd edək ki, toplanışın əsas məqsədi ehtiyatda olan bir qrup hərbi vəzifəlinin döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi, bilik və bacarıqlarının təkmilləşdirilməsi, eləcə də praktiki vərdişlərinin artırılmasıdır.

## Vətən Müharibəsi Qəhrəmanının xatirəsinə həsr olunan anım mərasimi keçirildi



Azərbaycan Hərb Tarixi Muzeyində torpaqlarımızın işğaldan azad olunması uğrunda canını fəda edən Vətən Müharibəsi Qəhrəmanı şəhid kapitan Cavid Mahmudovun 35 illiyinə həsr olunan anım mərasimi keçirildi.

Vətən müharibəsi zamanı qəhrəmancasına şəhidlik zirvəsinə ucalan kapitan Mahmudov Cavid Hilal oğlunun əziz xatirəsinə həsr olunan anım mərasimində şəhidin ailə üzvləri, dostları, döyüş yoldaşları, Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri iştirak etdilər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə çıxış edərək şəhidin ömür və döyüş yolu haqqında ətraflı məlumat verdi. "Qarabağda hərbi əməliyyatlar zamanı neçə-neçə igid oğullar canlarından keçərək şəhidlik zirvəsinə yüksəlib. Belə Vətən övladlarından biri də kapitan Cavid Mahmudovdur. O, 1989-cu il fevralın 6-da Biləsuvar rayonunun Aşağı Cürəli kəndində anadan olub. Cavid uşaq yaşlarından hərbçi olmağı arzulayıb. 2006-2010-cu illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) İdarəetmə mühəndisliyi ixtisası üzrə bakalavr təhsilinə yiyələnib. 2020-ci ildə isə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Hərbi Akademiyasında hərbi idarəetmə ixtisası üzrə təhsil almışdır. Cavid Mahmudov Azərbaycan Ordusunun savadlı zabitlərindən olub. Vətən müharibəsi zamanı o taboru ilə birlikdə Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Əməliyyatların ilk günlərindən şəxsi heyəti ilə birlikdə düşmənin Füzuli, Cəbrayıl rayonları istiqamətində alınmaz hesab etdiyi yüksəkliklərdə şanlı bayrağımızı dalğalandırıb. Döyüşlər zamanı verilən hər bir tapşırığın öhdəsindən layiqincə gələn kapitan sonuncu tapşırığı yerinə yetirərkən 2020-ci il oktyabrın 5-də qəhrəmancasına şəhid olub. Hazırda biz onu bütövlükdə Azərbaycan xalqının cəsur övladı kimi yad edirik", - deyə Əzizağa Qənizadə vurğuladı.






Bildirildi ki, Vətən torpaqlarının düşmən tapdağından azad edilməsi uğrunda canından keçmiş şəhid C.Mahmudovun döyüşlərdə göstərdiyi igidlik dövlətimiz tərəfindən də yüksək qiymətləndirilib. Düşmənin məhv edilməsi üzrə qarşıya qoyulan döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən Cavid Mahmudov ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı, "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub. Bundan başqa dövlət başçısının tapşırığına uyğun olaraq, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən Müharibəsi və Azərbaycan Milli qəhrəmanlarının adlarının əbədiləşməsini təmin etmək məqsədilə Biləsuvar rayonu Uşaq-Gənclər İdman-Şahmat Məktəbinə Vətən Müharibəsi Qəhrəmanı Cavid Mahmudovun adı verilib.

Qəhrəmanın döyüş yoldaşları kapitanlar Mərhəmət Məmmədli və Vüqar İbrahimov da qəhrəman tabor komandiri ilə bağlı xatirələrindən, Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin təxribatlarının qarşısını alarkən onun göstərdiyi igidlik və şüaət nümunələrindən danışdılar.

Sonra şəhidin gələcək nəsillərə örnək olan qısa lakin şərəfli ömür və döyüş yolundan bəhs edən videoçarx tədbir iştirakçılarına təqdim olundu.

Şəhidin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidin xatirəsinin uca tutulduğuna görə dövlətimizin başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında vətənpərvərliyi tərənnüm edən musiqilər ifa olundu.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

## Fərqlilər - bu torpaqda igidlər uyuyur

Bu yazımı Fərqlilər adlandırmağım səbəbsiz deyil. Çünki Vətən üçün canından keçməyə hazır olanlar Ulu Tanrı tərəfindən fərqləndirilənlərdir. Mənim bu yazımın fərqlilər dediyim qəhrəmanları könüllü döyüşçülərdir. O könüllülər ki, onların ürəyi hər zaman Azərbaycan xalqı ilə döyünür. Onları yetişdirən bir amal və bir məqsəddir. O da Azərbaycanın ərazi bütövlüyü və suverenliyi.

Fərqlilər adlı məqalə yazacağımı planlaşdırdığım zaman könüllü döyüşçülərimizi, xüsusilə də Sədərək uğrunda gedən döyüşlərdə əliyalın düşmən qarşısına çıxmış igidlərin harayına düşdüm. Qaynaqları araşdırıb, məqalələri oxuduğum zaman könüllülərin çoxusunun hərbi təcrübəsinin olmadığına rastladım. Bəziləri müəllim, bəziləri həkim, bəziləri isə yenicə hərbi xidmətdən qayıdan qəhrəman oğullarımızdır.

Şairin də dediyi kimi:

Torpağın qoynunda
şəhidlər yatır,
Şəhidlik! Ulu ad daşıyır onlar.
Nə qədər bu torpaq,
bu Vətən durur,
Beləcə ömür edib yaşayır onlar.

Vətən uğrunda şəhid olmaq böyük şərəfdir. Bu şərəfə nail olmaqsa, hər kəsin qismətinə düşmür. Bu uca zirvənin sahibləri heç vaxt yaddaşlardan silinmirlər. Onlar daim qəlblərdə yaşayırlar. İllər, əsrlər keçsə də, şəhidlərimiz hər zaman xatırlanır, böyük hörmət və ehtiramla yad edilirlər.

90-cı illərin əvvəllərində imperiya əsarətindən qurtulmuş Azərbaycan ən ağır tarixi dövrünü yaşayırdı. Fürsətdən istifadə edərək Azərbaycanın ən gözəl güşələrindən olan Naxçıvana qarşı da təcavüzkar hücumlar etməyə başlayır. 1990-cı ildə erməni quldurlarının Sədərək kəndinə hücumu zamanı bir yumruq kimi birləşərək qədim diyarın müdafiəsinə qalxan, düşmənə ciddi müqavimət göstərən naxçıvanlıların içərisində silaha sarılan könüllülər az deyildi. Həmin döyüşlərdə öz qəhrəmanlığı ilə seçilən igidlərdən biri Əliyev Kamran Yaqub oğlu olmuşdur. 1971-ci ilin 15 iyul tarixində Culfa rayonunun Əbrəqunus kəndində anadan olan və ilk təhsilini Əbrəqunus kəndindəki tam orta məktəbdə alan Kamran 1988-ci ildə məktəbi bitirərək Ukrayna Respublikasında texnikuma qəbul olur. O, təhsilini başa vuraraq Vətənə qayıdır və ordu sıralarına yazılır. Vətənin müdafiəsinə qalxan yüzlərlə gəncdən biri olan Kamran Sədərək kəndi uğrunda gedən döyüşlərdə "Tampo" ləqəbi ilə şöhrət qazanır.

Çox az bir müddət ərzində hərbi strategiyanı yaxşı mənimsəyən Kamran Əliyev Sədərək istiqamətində edilən hücumların qarşısını almaqda böyük dəyanət və igidlik göstərir. Lakin 18 may 1992-ci ildə düşmənin qəfil hücumunu dəf edərkən qəhrəmancasına şəhidlik zirvəsinə ucalır. Əbrəqunus kəndində dəfn edilir.

Qəhrəman olmursan, qəhrəman doğulursan deyib atalarımız. Xalqımız bu baxımdan bəxtəvər xalqdır. Çünki onun igid yetişdirməyinə gərək yoxdur, oğulları anadan igid doğulurlar. 90-cı illərdə Naxçıvanın işğalı düşmən üçün əsas hədəfə çevrildiyi zamanda Sədərəyə yollanan qəhrəman oğullardan biri də Əliqulu Ağayev olmuşdur. 1948-ci il avqustun 11-də Culfa rayonunun Yaycı kəndində anadan olan Əliqulu Ağayev orta məktəbi bitirdikdən sonra Naxçıvan şəhərində sürücülük məktəbində, Bakı şəhərində isə Mexanizatorluq kursunda təhsil almışdı. Daha sonra Sovet ordusu tərkibində hərbi xidmət keçmişdi. Əsgər həyatını başa vurduqdan sonra kənddə müxtəlif işlərdə çalışan Əliqulu Ağayev 1992-ci ilin mayında əsas qüvvələrini Sədərək istiqamətində cəmləmiş erməni cəlladları ilə döyüşə yollanır. Həmin günlərdə silahsursatları az olsa da, Vətənin mərd oğulları düşmən qarşısından bir addım belə geri çəkilmək barədə düşünmürdülər. 1992-ci ilin mayında Sədərək kəndi və "Miltəpə" istiqamətində ağır döyüşlər gedirdi. Xüsusən də "Miltəpə" istiqamətində gedən döyüşdə çoxlu sayda düşmənlə üz-üzə qalan igidlərimizin son qərarları belə olur ki, sona qədər döyüşəcək, ölsələr də, bir qarış torpağı düşmənə verməyəcəklər. Belə də oldu. Şəhidlərimizin qanı bahasına qazanılan bu döyüş Sədərəyin gələcək taleyində mühüm rol oynadı. Qayaları qan rənginə boyanmış Mil dağında bir neçə yaralı yoldaşını ölümdən xilas edən Əliqulu Ağayev düşmən üzərinə olan növbəti həmlədə - 19 may 1992-ci ildə şəhidlik məqamına ucalır. Ailəli olan şəhidimizdən geriyə iki övladı xatirə qalmışdır.

Vətən mənə oğlum desin, başqa dərdim olmayacaq deyən, 90-cı illərin burulğanında, silahsız-sursatsız Naxçıvanın müdafiəsinə qalxan oğullarımızdan biri də Coşqun Hüseynovdur. Coşqun düşmənə gözdağı olan igidlərimizdəndir. 21 dekabr 1973-cü ildə Culfa rayonunun Teyvaz kəndində dünyaya göz açan Coşqun 1980-ci ildə Teyvaz kənd tam orta məktəbinin birinci sinfinə daxil olmuş və 1990-cı ildə həmin məktəbi bitirmişdi. 1991-ci ildə həqiqi hərbi xidmətə çağırılan Coşqun Hüseynov erməni quldurlarının Vətənimizə hücumunun qarşısının alınmasında böyük qəhrəmanlıq göstərmişdi.

O, Sədərək uğrunda gedən döyüşlərdə öz şücaəti ilə tanınmışdı. 18 may 1992-ci ildə srateji baxımdan mühüm coğrafi mövqedə yerləşən Laçın rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilir. Bundan ruhlanan erməni təcavüzkarları bütün qüvvələrini cəmləşdirib üç istiqamətdən hücuma keçərək nəyin bahasına olursa-olsun, Sədərəyi işğal etməyi planlaşdırır. Mayın 22-nə qədər davam edən döyüşlərdə 20-yə yaxın əsgərimiz və kəndin dinc sakinləri şəhid olur. Bu şəhidlərin arasında 19 yaşlı Coşqun Hüseynov da var idi. Teyvaz kəndində dəfn olunub.

Düşmənin ağır hücum əməliyyatları nəticəsində Mil dağı istiqamətində şəhidliyə yüksələn, bir qarış da olsun torpağı düşmənə verməyən, qəhrəmanlıq tarixi yazan Coşqun Hüseynovla bağlı maraqlı bir hadisə bu gün də xatırlanır. Mayın 18-də qardaşı ilə bir səngərdə igidliklə döyüşən Coşqun qardaşının qucağında ölümsüzlüyə qovuşduqdan sonra şəhidin doğulduğu kənddəki atı həmin gün dayanmadan kişnəyir və havalanmış halda kəndi dolaşır. Bir gün sonra şəhidi kənddə dəfn edən zaman atı da kənd məzarlığına gəlir. Sonra uzun müddət kənd sakinləri həmin atı Coşqunun qəbrinin üzərində görürlər. Sanki vəfalı heyvan öz şəhid sahibinə yas saxlayır...

Şəhidlik... Elə bir zirvədir ki, oənginliyə ucalmaq hər insana qismət olmur. Bəlkə də yüzlərlə, minlərlə insan var ki, Tanrının onu şəhidliklə mükafatlandırmasını arzulayır, amma şəhidlik hər insana nəsib olmur. Şəhidlik - mənəvi zirvədir. Bu zirvədə Vətən oğullarının sarsılmaz əzmi, fədakarlığı və yenilməzlik gücü var. Məhz o güc 2020-ci ildə 44 günlük müharibə ilə tarix yaza bildiyimizi, böyük zəfərlərə imza ataraq ən gözəl Vətən sevdiyimizi göstərdi.

**Nuray NƏZƏROVA**
**Bakı şəhəri**

# Keçirilən təlim və məşğələlər ordumuzu məğlubedilməz edir



(Əvvəli 1-ci səhifədə)

Əsgərlərimiz torpaqlarımızın hər qarışı uğrunda can qoyaraq, qan tökərək savaşdılar, tarixi torpaqlarımızı düşməndən təmizlədilər. Bu qələbəni qazanmağımızı şərtləndirən amillər isə, gərgin təlim və məşqlərdə çəkilən əziyyətlər, tökülən tərlərlə qazanılan təcrübə idi. Bu gün də komandirlərimizin rəhbərliyi altında keçirilən dərslərdə qazandıqlarımızı, keçirilən təlim və məşqlərdə sınaqdan keçirir, döyüş hazırlığımızı durmadan artırırıq".

Gizir Nurlan Məmmədov bölmənin iştirak etdiyi məşğələ və təlimlərin sayəsində artan peşəkarlığın vacibliyindən danışdı. "Keçirilən məşğələlərdə öz nəzəri biliklərimizi artırır, çöl dərslərində ixtisasımızın praktiki üsul və vasitələrini dərindən mənimsəyirik. Əldə olunan bilik və bacarıqlarımızı keçirilən təlimlərdə uğurla tətbiq edirik. Təşkil olunan hazırlıq məşğələlərinin və təlimlərin sayəsində dövrün yeniliklərinin tətbiqi ilə müasir döyüşaparma üsullarının yollarını öyrənirik. Hər birimizin üzərinə düşənin öhdəsindən layiqincə gələrək, ordumuzun güclənməsində pay sahibi olmaqdır. Bunun üçün də əlimizdən gələni əsirgəmir, bölmənin şəxsi heyətinin təcrübəli döyüşçü olaraq formalaşmasında komandirlərimizə yardımçı oluruq".

PDM heyətindən sonuncu müsahibim müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş əsgər Tale Fərəcov oldu. O da öz növbəsində texnikanın taktiki-texniki xüsusiyyətlərinin yaxşı mənimsənilməsinin, ondan istifadə qaydasının dərindən öyrənilməsinin və zəruri texniki qulluq göstərilməsinin vacibliyini xüsusi vurğuladı. "Öz ixtisasının incəliklərinə bələd olmaq hər zaman vacibdir. PDM heyəti olaraq bizə təhkim olunmuş texnikanın həm nəzəri, həm də praktiki anlayışlarını öyrənməklə yanaşı, baş verə biləcək nasazlıqların qarşısını almaq üçün vaxtlı-vaxtında zəruri texniki qulluğun göstərilməsinə xüsusi diqqət ayırırıq. Öz təcrübələrimizi əsgərlərlə bölüşürük ki, onlar da öz ixtisaslarının incəliklərini dərindən mənimsəsinlər və bölməmizin döyüş qabiliyyətini daha da artırsınlar".



Çöl dərsində iştirak edən piyada motoatıcı bölmənin əsgərləri İlqar Abbasov, Kənan Babalıyev, Əli Əliheydərov və Aydın Quliyev öz növbəsində təcrübəli komandirlərin onlara öyrətdiklərinin qarşılığını layiqincə verməl üçün bütün səylərini ortaya qoyduqlarını bildirdilər. Öz ixtisaslarının incəliklərini öyrənməklə bilik və bacarıqlarını artırmağın vacibliyini dərk edən şəxsi heyət üzərlərinə düşən məsuliyyəti dərindən anlayaraq, vəzifə borclarını böyük həvəslə yerinə yetirir, komandirlərinə layiqli döyüşçü, valideynlərinə layiqli övlad olmaq üçün çalışırlar.



Sonda onu da qeyd etmək yerinə düşərdi ki, PDM heyətinin üzvləri 44 günlük Vətən müharibəsi və 2023-cü ilin əməliyyat tədbirlərinin, əsgərlər isə sonuncu sadalanan hərbi tarixi zəfərimizi təmin edən fəaliyyətlərin iştirakçısıdır. Təbii ki, məşqlərdə və təlimlərdə qazanılan təcrübə real döyüş fəaliyyətinin uğurla təşkilində açar rolu oynayır. Bölmənin hərbi qulluqçuları təlim və məşğələlərdə qazandıqlarını uğurla sınaqdan keçirərək qazanılan qələbədə pay sahibidirlər.

İştirak etdiyim çöl məşğələsi məni bir daha əmin etdi ki, Azərbaycan əsgəri döyüş hazırlığını artırmaqla, öz cəsarətini ortaya qoymaqla və misilsiz vətənpərvərlik nümayiş etdirməklə bundan sonra da xalqımıza ancaq başucalığı gətirəcək. Komandirlərimizin əsgərlərimizlə çiyin-çiyinə müqəddəs vəzifəni icra etməsi, bu ailə tellərinin təməlinin sarsılmaz olmasının əsas göstəricisidir. Bu gün hər bir azərbaycanlı ordumuzla fəxr edir, əsgərimizlə qürur duyur. Bu fəxarət və qürur hissi əbədidir. Şübhəsiz ki, komandirin öz əsgərinə inamı, əsgərin öz komandirinə ehtiramı bizim fəxarətimizi və qürurumuzu bundan sonra da davamlı edəcək.

**Kapitan**
**Fuad CƏFƏROV,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"AzərbaycanOrdusu"**

# Xüsusi Təyinatlı Qüvvələrin hissə və bölmələri ilə taktiki-xüsusi təlim keçirilib



Müdafiə nazirinin təsdiq etdiyi 2024-cü il üçün hazırlıq planına əsasən, Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) hissə və bölmələri ilə "Şiddətli soyuqlarda döyüş əməliyyatlarının aparılması" mövzusunda növbəti taktiki-xüsusi təlim keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimdə xüsusi təyinatlılar ərazinin maketi üzərində tapşırıqları dəqiqləşdirib, yüksək dağlıq ərazidə və şiddətli soyuqlarda xizəkli texnikalarla taktiki yerdəyişmə fəaliyyətlərini yerinə yetiriblər.

Döyüş qrupları şəklində şərti düşmənin dayaq məntəqəsinə qəfil pusqu keçirilib, həmlə obyektində və onun cinahlarında aşkar edilmiş canlı qüvvə məhv edilib, təminat yolları bağlanıb və dəstək üçün gələn digər qüvvələrin məhv edilməsi üzrə tapşırıqlar yerinə yetirilib.



Qarlı-şaxtalı hava şəraitində komandir heyətinin bölmələrin idarə edilməsi üzrə bilik və bacarıqlarının artırılması, döyüş əməliyyatları və xilasetmə tədbirlərinin aparılması, şəxsi heyətin xizək sürmə, eləcə də hərəkətli və hərəkətsiz vəziyyətdə atəşaçma vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən təlimdə qarşıya qoyulmuş tapşırıqlar yüksək peşəkarlıqla icra olunub.

# Döyüş və təminedici gəmilər dəstəsinin taktiki təlimi keçirilib



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2024-cü tədris ilinin hazırlıq planına əsasən, Hərbi Dəniz Qüvvələrinin (HDQ) döyüş və təminedici gəmilər dəstəsinin taktiki təlimi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, plana uyğun olaraq həyəcan siqnalı ilə baza məntəqəsindən ayrılan gəmilər Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda enerji infrastrukturlarının mühafizəsi və müdafiəsi məqsədilə döyüş tapşırıqlarının icrası üzrə praktiki fəaliyyətləri yerinə yetiriblər.

İki mərhələdə keçirilən təlimdə üzən gəminin saxlanılması və baxışın keçirilməsi, neft-qaz boru kəməri rayonlarında patrullama fəaliyyətinin icrası, gəmi taktiki qruplarda lövbərdə sualtı diversiya əleyhinə müdafiənin təşkili və birgə üzmə fəaliyyətlərini icra edərək təyin olunmuş rayona dəniz keçidi, düşmənin şərti suüstü və hava hədəflərinin məhv edilməsi üzrə tapşırıqlar icra edilib.



Təlimin əsas məqsədi ərazi sularımızda yarana biləcək təhdid zamanı komandirlərin və qərargah zabitlərinin birgə fəaliyyətlərinin işlənilməsi, eləcə də bölmələrin döyüşdə idarə olunması üzrə bilik və bacarıqlarının təkmilləşdirilməsidir.

Qeyd edək ki, taktiki təlimə HDQ-nin 26 vahid gəmisi və 450 nəfər şəxsi heyəti cəlb olunub.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Dövlətçilik tariximiz. Azərbaycan Atabəylər və Səfəvilər dövləti

**Suallar:**

**1. Dövlətçilik tariximiz.**

**2. Azərbaycan Atabəylər dövlətinin yaranması və inkişafı.**

**3. Səfəvilər dövlətinin yaranması və Azərbaycan tarixində onun yeri.**

### Dövlətçilik tariximiz

VII əsrin əvvəllərində Azərbaycanın şimalında - Albaniyanın Girdiman vilayətində mərkəzi Partav şəhəri (indiki Bərdə şəhəri) olmuş Mehranilər sülaləsinin (sabirlər adlı türk tayfaları) hökmranlığı başlandı. VII əsrin 60-cı illərində Xilafətdə Əməvilər sülaləsinin nümayəndələri hakimiyyətə gəldikdən sonra müharibələri gücləndirdilər. Şimaldan xəzərlərin yürüşü, cənubdan isə Sasani feodallarının hücumu Cavanşirin (642-681-ci illər Girdiman vilayəti) Xilafətə qarşı münasibətini dəyişdi. Cavanşir uzaqgörən xarici siyasəti ilə Azərbaycanın şimal torpaqlarını - Albaniyanı Ərəb xilafətinin, Bizansın, Sasanilərin və xəzərlərin işğallarından xilas etdi. Lakin müstəqilliyə can atan bizanspərəst feodallar sui-qəsd təşkil edərək 681-ci ildə Cavanşiri qətlə yetirdilər. 705-ci ildə ərəblərin hücumu nəticəsində Albaniyanın daxili müstəqilliyi ləğv edildi.

Sasani imperiyası dağıldıqdan sonra ərəblər Azərbaycanın işğalını genişləndirdilər. Azərbaycan uğrunda ərəblərlə xəzər türkləri arasında başlayan müharibələr VIII əsrdə daha da şiddətləndi. Ərəb işğalları və İslam dininin Azərbaycanın bütün ərazisində yayılması əvvəlki dinləri tam sıxışdırıb çıxara bilmədi. Lakin İslam dininin yayılması xalqın taleyində misilsiz dönüş yaratdı. İqtisadi və siyasi sabitlik yarandı.

Xilafətə tabe olan ölkələrdə azadlıq mübarizələri genişlənmiş, mərkəzə tabe olmaq istəməyən qüvvələrin sayı artmışdı. Azərbaycan Xilafətə qarşı azadlıq hərəkatının başlıca mərkəzlərindən biri idi. Xilafətə qarşı mübarizə Sasani imperiyasını zəiflətdi və Azərbaycanda bir sıra yerli feodal dövlətləri: Şirvanşahlar, Sacilər, Salarilər, Şəddadilər, Rəvvadilər dövlətləri yarandı. Azərbaycanın qədim dövlətçilik ənənələri dirçəldi. Bu dövlətlərlə yanaşı, Şəki hakimliyi, Dərbənd və Tiflis əmirlikləri kimi nisbətən kiçik dövlətlər də yaranmışdı. Bu dövlətlərin hamısında İslam dini rəsmi din olmuş, Azərbaycan xalqının təşəkkülü üçün vacib olan vahid türk dili və türk-islam mədəniyyəti formalaşmışdı.

XI əsrin ortalarında Azərbaycanda fəaliyyət göstərən Şirvanşahlar, Şəddadilər və Rəvvadilər dövləti arasında siyasi və iqtisadi əlaqələr zəif idi. Orta və Yaxın Şərqdə yaranan Səlcuqilər imperiyası Orta Asiya, İran, İraq, Suriya, Misir, Ön Qafqaz xalqları ilə birlikdə Azərbaycanı da hakimiyyəti altına keçirtdi. XII əsrin 20-30-cu illərində Səlcuq sultanları arasında hakimiyyət uğrunda mübarizə nəticəsində mərkəzi hakimiyyət zəiflədi və nəticədə XII əsrin 30-cu illərində xalqımızın etnik-siyasi tarixində xüsusi çəkiyə malik olan Azərbaycan Atabəylər dövləti yarandı.

XV-XVIII əsrlərdə Azərbaycanın dövlətçilik mədəniyyəti daha da zənginləşdi. Bu dövrdə Şərqin geniş ərazili Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətləri bilavasitə Azərbaycan sülalələri tərəfindən idarə olunurdu. Bu mühüm amil dövlətin daxili və beynəlxalq əlaqələrinə müsbət təsir göstərir, onun hərbi-siyasi təsir dairəsini, Azərbaycan dilinin fəaliyyət meydanını genişləndirir, xalqın maddi və mənəvi mədəniyyətinin daha da inkişaf etməsinə əlverişli şərait yaradırdı. XV əsrin sonu - XVI əsrin əvvəllərində Azərbaycan dövlətçiliyi özünün tarixi təkamülündə yeni mərhələyə qədəm qoydu. Görkəmli dövlət xadimi Şah İsmayıl Xətai bütün Azərbaycan torpaqlarını öz hakimiyyəti altında birləşdirərək paytaxtı Təbriz şəhəri olan vahid, mərkəzləşdirilmiş Azərbaycan dövləti - Səfəvi dövlətini yaratdı. Şah İsmayıl, Şah Təhmasib və digər Səfəvi hökmdarlarının fəaliyyəti, uğurlu daxili və xarici siyasəti nəticəsində Səfəvi dövləti qısa müddətdən sonra Yaxın və Orta Şərqin ən qüdrətli imperiyalarından birinə çevrildi.

### Azərbaycan Atabəylər dövlətinin yaranması və inkişafı

Azərbaycan atabəylərinin idarə etdiyi Eldəgizlər dövləti (1136-1225) Azərbaycan tarixində İldənizlər və ya Eldəgəzlər dövləti kimi də tanınır. Atabəy Şəmsəddin Eldənizin adı ilə bağlı olan Atabəylər dövlətinin ərazisi İraqı, İranı və Kür çayından cənubdakı Azərbaycan torpaqları da daxil olmaqla, Cənubi Qafqazın bir hissəsini əhatə edirdi. Səlcuq sultanı II Toğrul (1132-1134) Şəmsəddin Eldənizə "əmir" titulu verdi və onu öz oğlu Arslan şahın atabəyi təyin etdi. 1136-cı ildə o, Arran hakimi təyin olundu və Bərdəyə göndərildi. Bununla müstəqil Azərbaycan Eldənizlər dövlətinin və bu dövləti idarə edən Eldənizlər sülaləsinin əsası qoyuldu. Şəmsəddin Eldəniz bir çox xırda feodal mülklərini aradan qaldıraraq bütün Azərbaycanı öz hakimiyyəti altında birləşdirdi. O, sultan sarayından iqta aldığı Arranla yanaşı, Azərbaycanın bəzi cənub bölgələrini, habelə Naxçıvanı müstəqil idarə etməyə və öz adından pul kəsdirməyə başladı. Paytaxt əvvəllər Naxçıvan şəhəri idi. 1160-cı ildə Şəmsəddin Eldəniz "Böyük Atabəy" titulunu aldıqdan sonra bütün İraq Səlcuq sultanlığını özü idarə etməyə başladı. Böyük oğlu Məhəmməd Cahan Pəhləvan sultanın hacibi, kiçik oğlu Qızıl Arslan isə ordunun ali baş komandanı təyin edildi. Beləliklə, İraq Səlcuq sultanlığı Azərbaycan sultanlığına çevrildi. Şirvanşahlar dövləti və Azərbaycan üçün daim təhlükə yaradan gürcü torpaqları da Eldənizlər dövlətinin tərkibinə daxil edildi. Şəmsəddin Eldənizin hakimiyyətinin sonuna yaxın Eldənizlər dövləti Dərbənd keçidindən İran körfəzinə qədər çox geniş əraziləri - Azərbaycanı, o cümlədən Arran və Şirvan, İraq, Həmədan, Gilan, Mazandaran, İsfahan və Reyi əhatə edirdi. Mərkəzi hakimiyyətdən iqta almış əmirlərin hərbi qüvvələrindən başqa, hökmdarın özünün 50 min nəfərlik nizami süvari qoşunu vardı.

Səlcuq Sultanı III Toğrulun (1176-1194) atabəyi olan Məhəmməd Cahan Pəhləvan (Şəmsəddinin oğlu) hakimiyyətə gəldikdən sonra (1175-1186) paytaxtı Naxçıvandan Həmədana köçürdü (1175), həmin ili Təbrizi Ağsunqurilərdən azad edərək mərkəzi hakimiyyəti daha da qüvvətləndirdi. Azərbaycanı onun kiçik qardaşı Qızıl Arslan idarə edirdi. Məhəmməd Cahan Pəhləvandan sonra hakimiyyətə keçən qardaşı Qızıl Arslan (1186-1191) uzun müddət taxt-tacı ələ keçirməyə cəhd edən saray müxalifətinə və iri feodallara qarşı mübarizə apardı. Mərkəzi hakimiyyətin qüvvətlənməsindən narazı qalan iri feodallar və İnanc Xatın Qızıl Arslanı sui-qəsdlə (1191) öldürdülər. Azərbaycanda hakimiyyəti Əbu Bəkr (1191-1210) ələ keçirdi. Məhəmməd Cahan Pəlvanın digər oğulları Qutluq İnanc və Əmir Əmiran Ömərin idarə etdikləri İsfahan, Rey vilayətləri və İraqın bir hissəsi Eldənizlər dövlətindən ayrıldı. Parçalanmalar dövlətin tənəzzülünü sürətləndirdi. Vəziyyətdən istifadə edən Xarəzmşahlar, Əyyubilər, Abbasilər, Şirvanşahlar və gürcü çarları fəallaşdılar. Gürcü qoşunları 1203 və 1210-1211-ci illərdə Azərbaycan torpaqlarına dağıdıcı basqınlar etdilər. Onlar Qərbi Azərbaycanı və Naxçıvanı mühasirəyə aldılar, lakin ələ keçirə bilmədilər. Sonra Mərəndi talan etdilər, Təbrizi mühasirəyə aldılar. Şəhər hakimi Zahidə Xatın (Məhəmməd Cahan Pəhləvanın arvadı) çoxlu pul, daş-qaş və sənətkarlıq məhsulları verib şəhəri dağıntıdan qurtardı. Özbəyin (1210-1225) hakimiyyəti illərində Eldənizlər dövlətinin süqutu daha da sürətləndi. Beləliklə, monqolların hücumu ərəfəsində Azərbaycan dövlətlərindən heç biri nə Eldənizlər, nə də Şirvanşahlar ölkəni xarici təhlükədən qorumağa qadir deyildilər. 1206-cı ildə Çingiz xan tərəfindən Mərkəzi Asiyada yaradılmış Monqol dövləti hərbi yürüşlərə başladı. 1220-ci ildə monqol qoşunu Cəbə və Subutayın rəhbərliyi ilə Azərbaycan torpaqlarına daxil oldu və Təbrizə çatdı. Şəhər möhkəm qala divarları ilə əhatə olunduğundan monqollar danışığa girməyə üstünlük verdilər.

1221-ci ilin əvvəllərində Marağaya və 1222-ci ildə Şamaxıya hücum edən monqollar şəhərləri talan etdilər. Bu hadisədən sonra monqollar şimala üz tutdular. Dərbəndi tuta bilməyəcəklərini anlayıb Azərbaycanı tərk etdilər. Yeni torpaqlarda möhkəmlənmək istəyən Xarəzmşah şahzadəsi Cəlaləddin 1225-ci ildə Azərbaycana hücum etdi. Atabəylərin sonuncu hökmdarı Özbək Naxçıvana, Əlincə qalasına yollandı. Başsız qalan Təbriz əhalisi bir həftə döyüşdü və Cəlaləddin qələbə qazandı. Təbriz, daha sonra isə Gəncə zəbt edildi və bununla da Atabəylər dövləti süquta uğradı.

### Səfəvilər dövlətinin yaranması və Azərbaycan tarixində onun yeri

Azərbaycan dövlətçiliyi tarixində Səfəvilər dövlətinin özünəməxsus yeri vardır. Bu tarixi mübarizə Şeyx Səfiəddindən sonra sülalənin görkəmli başçıları, o cümlədən Şah İsmayılın (1487-1524) dövründə kəskin xarakter aldı. Səfəvilərin Ərdəbil hakimliyindən sonrakı dövrünü onların Azərbaycanın siyasi həyatında mühüm rol oynaması, bütün Azərbaycanda hakimiyyətin yaranması və möhkəmlənməsi dövrü kimi qiymətləndirmək olardı. Məhz Səfəvilərin Ərdəbil hakimiyyəti mərkəzləşmiş Azərbaycan dövlətinin yaradılması yolunda başlanğıc rolunu oynamışdır. XV əsrin ortalarından etibarən Səfəvilər daha fəal siyasət yeritməyə başladılar. Onlar uğurlu hərbi yürüşlər keçirərək böyük qənimətlər əldə edir və öz mövqelərini möhkəmləndirirdilər. Əsrin II yarısında artıq Muğanın bir hissəsi, Qarabağ və Azərbaycanın Talış dağlarına qədər olan şərq torpaqları onların təsiri altına düşmüşdü. Həm də Səfəvilərin ayrı-ayrı nümayəndələri tarix səhnəsində daha ruhani başçısı kimi yox, siyasi xadim kimi çıxış edirdilər. Səfəvilərin hakimiyyəti Ərdəbil dövründən (1501) başlanır və 1736-cı ilə qədər (Nadir şah elan olunur və Səfəvilər sülaləsinin hakimiyyətinə son qoyulur) davam edir.

Səfəvilərin hakimiyyəti Şah İsmayılın dövründə daha da gücləndi. Səfəvilər ərazilərini genişləndirmək məqsədilə birinci zərbəni Şirvanşahlara vurmaq qərarına gəldilər. 1500-cü ilin payızında qızılbaşlar (səfəvilər) Kürü keçib Şirvan ərazisinə daxil oldular. Şirvanşahlar dövləti məğlub edildikdən sonra İsmayıl Bakı üzərinə hücuma keçərək onu ələ keçirdi. 1501-ci ilin ortalarında Naxçıvan ərazisində Ağqoyunlular və Səfəvilər arasında həlledici döyüş baş verdi. Bu döyüşdə İsmayıl əsil sərkərdəlik məharəti göstərərək qələbə qazandı. Həmin qələbədən sonra, 1501-ci ilin payızında İsmayıl təntənə ilə Təbrizə daxil oldu və özünü şah elan etdi. Beləliklə, paytaxt Təbriz olmaqla Səfəvilər dövlətinin əsası qoyuldu. Azərbaycan Səfəvilər dövlətinin özəyi idi. 1503-cü ildə Ağqoyunlu dövlətinin varlığına son qoyan şah İsmayıl Əlvənd üzərində qələbə ilə İran və Əcəm İraqının xeyli hissəsinə yiyələndi. Bu dövlətdə əhalinin etnik və mədəni birliyə malik çoxluğunu Azərbaycan türkləri təşkil edirdilər. Azərbaycan etnik ünsürü dövlətin siyasi həyatında rəhbər rol oynayırdı. XVI əsrin ortalarına yaxın dövlətin 74 əmirindən 69-u Azərbaycan türkü idi. Ordu da əsasən Azərbaycan tayfalarından təşkil olunurdu. Şahın sarayında, qoşun içərisində və qismən diplomatik yazışmalarda Azərbaycan türkcəsindən istifadə olunurdu.

Səfəvilər dövlətinin yaranması Azərbaycan tarixində mühüm hadisə idi. Bu ölkənin təsərrüfat həyatı üçün şərait yaratdı, yadellilərə qarşı xalqın mübarizəsini asanlaşdırdı.

Səfəvilər dövlətinin meydana çıxması və onun qüdrətinin artması Osmanlı İmperiyasını narahat edirdi. Osmanlı İmperiyasının sultanı II Bəyazid Şah İsmayıla qarşı müharibəyə başlamaqdan imtina edərək, 1504-cü ildə bu dövləti tanıdı. Bununla belə, Osmanlı İmperiyası ilə Səfəvilər dövləti arasındakı müharibənin başlanmasına maraqlı olan xristian dövlətləri Almaniya, Fransa, Portuqaliya, İspaniya, Skandinaviya dövlətləri, eləcə də Roma Papası çox istəyirdilər və bunu da, "Allahın xristian dünyası üçün yaratdığı bir fürsət" kimi qiymətləndirilmiş, bundan da dərhal istifadə etməyə çalışmışdılar. 1514-cü il avqustun 24-də Çaldıran düzündə tarixin ən qanlı qardaş qırğını, türk dünyasının ümumi faciəsi, Qərb diplomatiyasının isə qələbəsi oldu. Bu döyüşdə Səfəvilər məğlub olaraq Ərzurum şəhəri ilə birlikdə Şərqi Anadolunu və Şimali İraqı itirdilər.

Şah İsmayılın ölümündən sonra onun oğlu I Təhmasib taxta çıxdı (1524-1576). Süleyman Qanuninin (1520-1566) vaxtında Osmanlı ali təbəqəsi öz nüfuz dairələrini şərq istiqamətində genişləndirir, qarşılıqlı hücumlar ara vermir, illərlə davam edirdi. Nəhayət, 1555-ci il mayın 29-da Amasiyada Səfəvi-Osmanlı müharibəsinin birinci mərhələsini başa çatdıran sülh müqaviləsi imzalandı.

XVI əsrin 70-ci illərindən etibarən Osmanlı işğalının yeni dövrü başlandı. 1586-1589-cu illərdə bütün Azərbaycan Sultan II Muradın ordusu tərəfindən zəbt olundu. 1590-cı ildə imzalanan İstanbul sülh müqaviləsinə görə, Azərbaycandan əlavə indiki Ermənistan, Gürcüstan, habelə İranın qərb vilayətləri Osmanlı imperiyasına verildi və Səfəvilər dövləti süquta uğradı.

1639-cu il mayın 17-də Qəsri-Şirində imzalanmış sazişə görə Səfəvi-Osmanlı müharibəsinə son qoyuldu. Ərəb İraqı osmanlılara, Zəncir qalasından şərqdəki torpaqlar Səfəvilərə verildi. Səfəvilər Van və Qars qalalarına, həmçinin Ahalsixa hücum etməyəcəklərinə dair təminat verdilər. Səfəvilər dövlətinin süqutundan sonra Azərbaycan torpaqları parçalandı və ayrı-ayrı ərazilərdə xanlıqlar yaranmağa başladı.

Tariximizin hansı səhifəsini vərəqləsək, orada igid babalarımızın keçdiyi qəhrəmanlıq yollarının izinə rast gələrik. Çünki yaşadığımız torpağı qorumaq üçün Vətən uğrunda mübarizə amili vətənpərvərliyi şərtləndirir. Vətənpərvərliyin tarixi kökündə min illər boyu yaşamış, möhkəmlənmiş, öz ana torpağına, dilinə və adət-ənənələrinə bağlanmış dövlətçilik durur. Azərbaycanda dövlətçilik ənənələrinin məhz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən bərpa edilməsi və onun siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin fəaliyyəti sayəsində inkişaf etdirilməsi, müstəqilliyimizin möhkəmləndirilməsi, onun əbədi və dönməz xarakter alması, beynəlxalq nüfuzunun sürətlə artması mümkün olub.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Xarici dövlətlərin hərbi attaşeləri AMEA-da olublar





*Təsdiq edilmiş 2024-cü ilin fəaliyyət planına əsasən, ölkəmizdə akkreditə olunan xarici dövlətlərin hərbi attaşeləri üçün Azərbaycan Milli Elmlər Akademiyasına tanışlıq səfəri təşkil olunub.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir



ki, hərbi attaşelik aparatının nümayəndələri Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin binası ("İsmailiyyə" binası) ilə tanış olublar.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli qonaqlara akademiyanın yaranma tarixi və fəaliyyəti haqqında məlumat verib.

Hərbi attaşelər tədbirin təşkilinə və göstərilən diqqətə görə minnətdarlıqlarını bildiriblər.

# "Qələbə marşı" Türkiyədə də coşqu ilə qarşılandı

*Marş coşqudur, ruhun kükrəyişidir, qələbə ruhunun musiqi vasitəsilə ifadəsidir. Ermənistan Azərbaycana qarşı ədalətsiz müharibəyə başlayandan xalq qələbəyə səsləyən marş arzulayırdı, bu marşın ritminin harayını tamamlayacaq qələbə arzulayırdı. Qələbəyə səsləyən mahnılar bu istəyin təzahürü idi. Xalq Zəfər, Zəfərə həsr olunmuş Zəfər marşının təşnəsi idi. Zəfər 2020-ci ilin 8 noyabrında - Şuşanın işğaldan azad olunması ilə qazanıldı. Və Qələbə marşı da yazıldı... Qələbə marşı Azərbaycan xalqının işğalçı dövlət üzərində qazandığı bu qələbəyə həsr olunub. Bu marş min illik dövlətçilik tariximizin qüdrətinin sədası kimi səslənir, heysiyyətlə, sevgilərlə dinlənilir.*



Marşın döyüş ruhlu intonasiyaları ordumuzun döyüş əzmini, qələbə ruhunu, "Yallı" rəqsi isə vəhdət rəmzi olaraq xalqın Ali Baş Komandanın ətrafında monoloit birliyini ifadə edir. Xidmətə başladığım andan etibarən bütün hərbçilər kimi mən də qələbəyə hazırlaşırdım. Mən də əmin idim ki, güclü ordumuz Ali Baş Komandanın döyüş əmri ilə torpaqlarımızı işğaldan azad edəcək. 2016-cı ilin Aprel döyüşlərində qazanılan qələbə əminliyimi daha da yüksəltdi. Aprel qələbəsindən baxanda son döyüş, son döyüşdə qazanılacaq Zəfər aydınlığı ilə görünürdü.

Vətən müharibəsinə qədər bir neçə hərbi parad keçirilmişdi. Hər dəfə yeni silahları və texnikaları görəndə xalq qələbənin nə qədər yaxında olduğunu hiss edirdi. Musiqiçilər, adətən, digər insanlardan daha həssas olurlar. İllər ərzində gördüyümüz və yaşadığımız hadisələr bir peşəkar hərbçi kimi duyğularımda titrəyiş yaradırdı. Obrazlı şəkildə desək, kiçik epizodlardan ibarət çox böyük təəssüratlarım formalaşmışdı. Zamanında kədəri, faciəni ifadə edən notlar çox səslənmişdi. Nə qədər nikbin olsaq da, belə idi. Övladını itirən ananın fəryadı, yurdunu itirənlərin kədəri, əsirlərimizin yaşadığı acılar, bir də torpaqlarımızı işğaldan azad etmək üçün əmr gözləyən, ayağını torpağa var gücü ilə vuran əsgərlərimizin döyüş intizarı. Kədərin və əzəmətin qovuşmasından yaranan bir təəssürat. Çatışmayan vacib bir həlqə var idi - Zəfər təntənəsi. Məhz Vətən müharibəsində yaşadıqlarım mənə təntənəni hiss etdirdi. Ordumuzun döyüşlərini, qazandığı qələbələri görmək möhtəşəm, müqayisəyəgəlməz bir duyğu idi. Xalqımızın bir an içində müharibəyə səfərbər olması, hərbi komissarlıqların qarşısında yaranan qələbəliklər, insanların cəbhəyə sovqat göndərməsi... bunlar, həqiqətən, çox təsirli səhnələr idi. Ali Baş Komandanın xalqa müraciətləri, xarici mətbuatda izlənilən çoxsaylı musahibələri məni də riqqətə gətirirdi. Mən ruhumla artıq təntənənin səsini, akkordlarını eşidir, hətta rəngini də görürdüm.

Qələbə artıq mənim üçün aydın idi. Məhz belə anda əzəmətli və təntənəli marş yazmaq ilhamı yarandı məndə. Buna görə də "Şur" ladını və "Şərur yallısı"nı seçdim. Təxminən 20 gün müddətində "Qələbə marşı"nı yazdım. Bu, dahi Üzeyir bəyin ənənəsidir. "Koroğlu" operasının möhtəşəm uvertürası da, qələbə ruhlu "Çənlibel" xoru da "Şur" ladı intonasiyaları üzərində yazılıb. "Şərur yallısı"nı birliyimizin, əl-ələ tutub vahid komandanlıq ətrafında birləşmənin rəmzi kimi istifadə etdim. "Qələbə marşı" ilk dəfə 2020-ci il dekabrın 10-da Azadlıq meydanında keçirilən Zəfər paradında Bakı qarnizonunun birləşmiş orkestrlərinin ifasında mənim dirijorluğumla səsləndi. O vaxtdan indiyə qədər bu əsər müxtəlif dövlət tədbirlərində, televiziya verilişlərində, sıra meydanlarında və s. məkanlarda ifa olunur.

Bu günlərdə cənab Ali Baş Komandanın qardaş Türkiyə Cümhuriyyətinə səfəri zamanı Cümhurbaşkanlığı muhafız alayı bandosu da "Qələbə marşı"nı ifa etdi. Dinlədikcə qürurverici duyğular yaşayırdım - bir azərbaycanlı kimi, bir musiqiçi, bəstəkar kimi. Bu, həm mənim, həm də kollektivimizin uğurudur. Bu münasibətlə orkestr qarşısında çıxış edərək hərbi musiqiçilərimizi də təbrik etdim. Bir hərbi musiqiçi, hərbi dirijor, əsərin müəllifi və ən əsası Azərbaycan Ordusunun zabiti olaraq möhtəşəm duyğular yaşadım.

Azərbaycanın tarixi Zəfərinə həsr olunmuş "Qələbə marşı"nın Azərbaycanda növbədənkənar prezident seçkilərindən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Türkiyəyə rəsmi səfərində səslənməsi də böyük tarixi şəxsiyyət Heydər Əliyevin bir tarixi kəlamının tarixi ifadəsidir: "Bir millət, iki dövlət". Dünya ictimaiyyəti bu birliyi həm də "Qələbə marşı"nın coşqusunda yaşadı.

Arzu edirəm ki, ölkəmizdə, ordumuzda, ümumiyyətlə, bütün səhnələrimizdə yalnız zəfər sədaları səslənsin.

**Polkovnik**
**Rüfət AXUNDZADƏ**
**Əməkdar İncəsənət xadimi**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə "KAAN" ilə 5-ci nəsil döyüş təyyarələri istehsal edən ölkələr arasında yerini aldı



Türkiyənin "KAAN" milli hərbi təyyarəsi bu gün ilk uçuşunu uğurla həyata keçirdi. Bununla da Türkiyə 5-ci nəsil döyüş təyyarələri istehsal edən ölkələr arasında yerini aldı.

Türkiyənin Aerokosmik Sənayesi tərəfindən həyata keçirilən ən mühüm texnologiya layihələrindən biri olan "KAAN"ın uçuşu üçün bütün texniki və laboratoriya sınaqları tamamlanıb.

Ötən il martın 17-də "KAAN" ilk dəfə uçuş-enmə zolağına çıxarılıb. Bunun ardından Türk mühəndisləri tərəfindən son 9 ayda təyyarənin səmaya qaldırılması üçün hazırlıqlar aparılıb. Dizaynı və istehsalı ilə Türkiyənin yerli məhsulu olan "KAAN"ın qanadlarının uzunluğu 14, hündürlüyü 6, uzunluğu isə 21 metrdir. Təyyarənin kokpiti bir pilot üçün nəzərdə tutulub.

Qoşa mühərriki, yüksək manevr qabiliyyəti, radardan yayınması, gəmidə silah daşıma və elektron döyüş qabiliyyətləri bu hərbi hava vasitəsinin ən diqqət çəkən xüsusiyyətləridir. Hər cür hava və yer hədəflərinə strateji hücum imkanı yaradacaq təyyarə yüksək döyüş məsafəsi və supersonik sürətlə dəqiq atəş xüsusiyyətləri ilə də fərqlənir.

## İsrail aviasiyası Dəməşqi yenidən raket atəşinə tutub



İsrail aviasiyası bu gün səhər saatlarında Suriyanın paytaxtı Dəməşqin Kəfr-Susa rayonuna bir neçə raket zərbəsi endirib.

Raketin İran məktəbinin yaxınlığındakı binaya düşməsi nəticəsində xəsarət alanlar var. SAXAL-ın məlumatına görə, əməliyyatlar zamanı "Hizbullah" hərəkatı da daxil olmaqla, Suriyada fəaliyyət göstərən İranla əlaqəli qrupların bazaları hədəf alınıb.

Xatırladaq ki, yanvar ayında İsrail aviasiyasının Dəməşqə növbəti reydi İslam İnqilabı Keşikçiləri Korpusunun üç müşavirinin ölümü ilə nəticələnmişdi.

## İndoneziyada helikopter qəzasında 3 nəfər ölüb



İndoneziyanın şərqindəki Şimali Maluku vilayətində baş verən helikopter qəzasında 3 nəfər ölüb.

İndoneziya mediası xəbər verir ki, "PT Weda Bay Nickel" şirkətinə məxsus "Bell 429 PK-WSW" helikopterinin qalıqları fevralın 21-də Halmera Tenqah rayonundakı meşədə aşkarlanıb. Bu barədə açıqlama verən vilayətin axtarış və xilasetmə ofisinin rəhbəri Fatur Rəhman bildirib ki, helikopterdəki hər 2 ekipaj üzvünün və bir sərnişinin meyiti tapılıb. Axtarış işlərinə 300 nəfər şəxsi heyət, o cümlədən xilasedicilər, polislər, hərbi qulluqçular cəlb olunubmuş.

Bildirilir ki, helikopterin pilotları ilə əlaqə fevralın 20-də yerli vaxtla saat 13:16-da kəsilib. Həmin vaxt helikopter meşənin üzərindən uçurmuş. Hələlik, qəzanın səbəbləri bilinmir.

## ABŞ Ukraynanın 12 pilotuna "F-16"ları idarə etmək üçün təlim keçəcək



ABŞ cari ildə Ukrayna Silahlı Qüvvələrinin 12 pilotuna "F-16" qırıcıları idarə etmək üçün təlim keçəcək.

Bu barədə CNN telekanalı məlumat yayıb.

Arizona Milli Qvardiyasının sözçüsü kapitan Erin Hanniqan telekanalına bildirib ki, ukraynalı pilotların may-avqust ayları arasında təlimləri başa vurması gözlənilir. Baxmayaraq ki, dəqiq vaxt proqramın gedişatından asılıdır.

Qeyd edilib ki, ötən ilin oktyabrında təlimlərə başlayan dörd ukraynalı pilotdan ibarət ilk qrup yaya qədər "F-16" qırıcılar ilə bağlı təlimləri başa çatdıracaq.

**AZƏRTAC-ın materialları əsasında**

# Əbədiləşən ömür






*Şəmkir rayonunun Alavaşlı kəndinin yetirməsi olan şəhid Qurban Qinyaz oğlu Qəzənfərlinin xatirəsinə tikilən "Xatirə Bulağı"nın açılış mərasimi keçirildi. Mərasimdə müharibə iştirakçıları, şəhid ailələrinin üzvləri, məktəblilər və ictimaiyyət nümayəndələri iştirak etdilər.*



Mərasimdə Ulu Öndər Heydər Əliyevin və şəhidlərin xatirəsi böyük ehtiramla yad olundu.

Çıxış edənlər bildirdilər ki, Vətənimizin azadlıq və müstəqillik mübarizəsi həmişə davam edib. XX yüzillikdə Azərbaycan xalqı çoxəsrlik dövlətçilik ənənəsinə sadiq qalaraq Şərqdə ilk dövlət kimi fəaliyyət göstərmiş Azərbaycan Demokratik Respublikasının varisi kimi müstəqilliyini yenidən bərpa etmişdi. Müstəqilliyin ilk illərində ağır, böhranlı vəziyyət yaranmışdı. Regionda hərbi-siyasi vəziyyət gərginləşmişdi. 1988-ci ildən əsassız ərazi iddiaları ilə ermənilər elan edilmədən Azərbaycana qarşı müharibəyə başladılar. Düşmən ölkəmizin ərazisində böyük faciələr, təxribatlar törədirdi. Bu təxribatlar nəticəsində yüzlərlə soydaşımız həlak oldu. Nəticədə torpaqlarımız işğal olundu. Uzun illər bu münaqişənin dinc yolla həll edilməsi mümkün olmadı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin beynəlxalq təşkilatlarda, dövlət rəhbərləri ilə görüşlərdə irəli sürdüyü sülh təklifləri nəzərə alınmadı. Havadarlarından dəstək alan Ermənistan ordusunun hissələri yeni ərazilər işğal etmək niyyəti ilə 2020-ci il sentyabrın 27-də yenidən hücuma keçdi. Ali Baş Komandanın əmri ilə əkshücum əməliyyatı başladı. 44 gün davam edən döyüş əməliyyatlarında düşmən məğlub edildi. 2023-cü ilin sentyabrında keçirilən əməliyyat tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu.

Qurban Qinyaz oğlu Qəzənfərli Birinci Qarabağ müharibəsində şəhid olmuş Sahib Vətənə xidmətin adını daşıyan məktəbdə təhsil alıb. Həmişə Vətənə müsəlləh əsgər olacağını bildirib.

Çıxış edənlər bildirdilər ki, Qurban Vətənə xidməti həyatının mənası hesab edirdi. Xidmət zamanı həmişə vətənsevər bir əsgər kimi tanınıb. Komandanlıq ailəsinə təşəkkür məktubları göndərib. Bu gün biz qəhrəman övladlarımızla fəxr edirik, onlarla qürur duyuruq.

Göstərdiyi şücaətlərə görə Qurban Qəzənfərli Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif olunub.

Sonda məktəblilər vətənpərvərlik mövzusunda şəhidlərə həsr olunmuş şeirlər söylədilər. Şəhid anası Rüxsarə Qəzənfərli şəhidləri yad etdiklərinə görə soydaşlarımıza minnətdarlığını bildirdi.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Avropa Liqası: "Qarabağ" tarixində ilk dəfə 1/8 finala vəsiqə qazanıb



"Qarabağ" UEFA Avropa Liqasının pley-off mərhələsində cavab oyununa çıxıb.

Ağdam təmsilçisi doğma meydanda Portuqaliyanın "Braqa" klubu ilə üz-üzə gəlib.

Tofiq Bəhramov adına Respublika Stadionunda oynanılan görüş qonaqların 3:2 hesablı qələbəsi ilə başa çatıb.

Ağdam klubu 57-ci dəqiqədə meydanda azlıqda qalıb. Elvin Cəfərquliyev ikinci sarı vərəqəni alaraq meydandan kənarlaşdırılıb. Hesab isə 70-ci dəqiqədə açılıb. Rocer Fernandes braqalıları önə keçirib. 83-cü dəqiqədə Alvaro Calo ikinci topu Azərbaycan çempionunun qapısından keçirib. Əsas vaxtda başqa qol olmayıb və ümumi hesab bərabərləşib - 4:4. Bu səbəbdən qalibi müəyyənləşdirmək üçün əlavə vaxta ehtiyac duyulub. 103-cü dəqiqədə "Qarabağ"ın müdafiəçisi Mateus Silva fərqi minimuma endirib - 1:2. Qonaqlar 115-ci dəqiqədə Simon Banzanın penaltidən vurduğu qolla komandasının üstünlüyünü yenidən artırıb. Matçda son nöqtəni isə 120+2-ci dəqiqədə Nəriman Axundzadə qoyub.

Səfərdəki ilk matçda rəqibinə 4:2 hesabı ilə qalib gələn "Qarabağ" iki görüşün nəticəsinə əsasən tarixində ilk dəfə 1/8 finala vəsiqə əldə edib.

## Azərbaycan parataekvondoçuları beynəlxalq turniri 3 medalla başa vurublar



İranın paytaxtı Tehranda keçirilən Dünya Taekvondosunun Prezidentinin Kuboku başa çatıb.

Azərbaycan yığması yarışda üç medal qazanıb.

K44 kateqoriyasında mübarizə aparan İmaməddin Xəlilov (70 kiloqram) gümüş, Sabir Zeynalov (58 kiloqram) və Şahmar Quliyev (+80 kiloqram) isə bürünc mükafatın sahibi olublar.

Qeyd edək ki, parataekvondo üzrə Azərbaycan yığmasının üç üzvü - İmaməddin Xəlilov, Sabir Zeynalov və Əbülfəz Abuzərli "Paris-2024" artıq Yay Paralimpiya Oyunlarına lisenziya qazanıblar.

## Avropa çempionatında üç qızıl medal qazanan Azərbaycan ağırlıqqaldıranı Vətənə dönüb



Bolqarıstanın paytaxtı Sofiya şəhərində keçirilən Avropa çempionatında üç qızıl medal qazanan Dadaş Dadaşbəyli Vətənə qayıdıb.

Heydər Əliyev Beynəlxalq Aeroportunda idmançının qarşılanma mərasimi olub. Mərasimdə idman ictimaiyyəti, media mənsubları, azarkeşlər, idmançıların yaxınları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Dadaş Dadaşbəyli toplam 388 kiloqram (176+212) nəticə ilə yekun sıralamada da Avropada hər kəsi qabaqlayaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

**AZƏRTAC-ın materialları əsasında**

## Maraq dünyamız

# "Daş meşə"si

***"Shilin2 (Daş meşə) Çinin birinci möcüzəsi sayılır. 270 milyon illik 2Daş meşə"si başdan-başa qaya parçaları ilə əhatə olunub.***



Bu qeyri-adi meşə Çinin Yunnan vilayətində, Kunmindən 130 kilometr uzaqlıqda yerləşir. "Shilin" Çin dilindən tərcümədə "Daş meşə" mənasını bildirir. 20-50 metr hündürlükdə daş sütunları üfüqdə bir meşə kimi görünür. Ona görə də, bura "Daş meşə" adlanır.

"Daş meşə"ləri 270 milyon il bundan əvvəl dayaz dənizin yerində formalaşıb.

300 kvadrat kilometrlik bir ərazini əhatə edən "Daş meşə" minilliklər boyu seysmik aktivlik, su və külək eroziyasının nəticəsində əmələ gəlib. Bu təbii möcüzə milli park adına sahibdir. Region YUNESKO-nun Dünya Mədəni İrsi Siyahısına daxil edilib.

**"Azərbaycan Ordusu"**

---

Gizir Məmmədov Vüqar İlqar oğluna məxsus SQ № 0020638 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Fərhadzadə Firdovsi Firudun oğluna məxsus AD № 0005876 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Rəhimov Nağı Nemət oğluna məxsus № 017576 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
kapitan
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 56
Nüsxə 4650